# TOVUZ

VƏTƏN, XEYİRXAHLIQ, ƏDALƏT UĞRUNDA!

Tovuz Rayon İcra Hakimiyyətinin orqanı

Qəzet 1929-cu ildən çıxır * № 15-16 (7522-7523) * 24 oktyabr 2018-ci il * İctimai-siyasi qəzet * Qiyməti 50 qəpik


# Bütün vəzifələr uğurla və vaxtında icra edilir

***Oktyabr ayının 18-də Rayon İcra Hakimiyyəti başçısı yanında Şura iclası keçirilmişdir. "2018-ci ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunları və qarşıda duran vəzifələr barədə" Tovuz Rayon İcra Hakimiyyətinin başçısı Məmməd Cahangir oğlu Məmmədov məruzə etmişdir.***

***Məruzə dərc olunur.***

**Hörmətli yığıncaq iştirakçıları!**

**Xanımlar və cənablar!**

Bu günkü yığıncağımız çox əlamətdar bir günə təsadüf edir. Bu gün Azərbaycan Respublikasının öz dövlət müstəqilliyini bərpa etməsinin 27-ci ildönümüdür. Bu münasibətlə hər birinizi təbrik edirəm, Ulu Öndərimiz Heydər Əliyevin bünövrəsini qoyduğu müstəqil dövlətimizin daha da möhkəmləndirilməsi yolunda böyük uğurlar arzulayıram. Bu gün Azərbaycan dövləti möhtərəm Prezidentimiz İlham Əliyevin rəhbərliyi ilə öz iqtisadi yüksəlişi, tərəqqisi ilə beynəlxalq aləmin diqqətini cəlb edən bir dövlətdir.Respublikamız özünün ənənələrinə sadiq qalmaqla əvvəlki illərdə yaradılan fundamental baza əsasında inkişaf tendensiyasını uğurla davam etdirir.

Bu il oktyabrın 9-da Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2018-ci ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında dövlətimizin başçısı bildirmişdir ki, 2018-ci ildə iqtisadi sahədə islahatların dərinləşməsi işində çox önəmli addımlar atılıb. İlin əvvəlindən qarşımıza qoyduğumuz bütün vəzifələr uğurla və vaxtında icra edilir.

Regionların malik olduğu potensial imkanlardan səmərəli istifadə etmək üçün son 15 ildə bölgələrin sosial-iqtisadi inkişafına dair üç dövlət proqramı təsdiqlənib və artıq üçüncü proqramın icrası başa çatmaqdadır. Bütövlükdə bu proqramlar nəzərdə tutulan inkişafı təmin etmişdir.

Yeni iş yerlərinin yaradılmasını qeyri-neft sektorunun, bölgələrin inkişafı kimi dəyərləndirən cənab Prezidnetin qarşıya qoyduğu məqsədə uyğun olaraq 2018-ci ilin doqquz ayında ölkədə 85 min daimi iş yeri açılmışdır. İclasda cənab Prezident onu da vurğulamışdır ki, sahibkarlığın inkişafı fonduna ötən dövrdə 2,2 milyard vəsait ayrılıb və Fondun fəaliyyəti nəticəsində gələn il də ölkəmizdə minlərlə iş yeri yaradılacaq. Hazırda ölkədə işsizlik 5 faiz həddindədir. Dövlətimizin başçısı əhalinin artımını nəzərə alaraq, iş yerlərinin yaradılmasının daimi proses olmasının vacibliyini bildirmişdir.

2003-cü ildə yoxsulluq kimi sosial bəlanın tamamilə aradan qaldırılacağı vəd olunmuşdu. Son 15 ildə yoxsulluq həddinin 49 faizdən 5 faizə enməsi təkmil sosial-iqtisadi islahatların nəticəsidir.

Ölkə üzrə cari ilin doqquz ayının sosial-iqtisadi göstəriciləri məmnunluq yaradır. Bu dövrdə ümumi daxili məhsul 0,8 faiz artıb. Qeyri-neft sektorunda artım 1 faizdir. Sənaye istehsalı 2 faiz, qeyri-neft sənayesi isə 10,8 faiz, kənd təsərrüfatı 4,3 faiz artıb. Aqrar sektorda istehsal imkanlarının genişlənməsinin nəticəsidir ki, artıq Azərbaycan bir sıra istiqamətlər üzrə ərzaq təminatını sırf yerli istehsal hesabına həyata keçirir, eyni zamanda ölkənin ixrac imkanları genişlənir. Doqquz ay əraində ölkənin xarici ticarət dövriyyəsi 37 faiz artıb. Xarici ticarətimizin müsbət saldosu 9 ayda 6,5 milyard dollar təşkil edir.

Hazırda ölkədə infilyasiya 2,6 faiz, əhalinin gəlirlərinin artımı isə 9,5 faizdir. Əhalinin gəlirlərinin infilyasiyanı 7 faiz qabaqlaması sosial rifahın çox müsbət göstəricisidir.

Ölkə iqtisadiyyatına cari ilin ötən dövründə 9 milyard dollar sərmayə qoyulub. Bu vəsaitin 5,6 milyard dolları qeyri-neft sektoruna yatırılıb. Bu göstərici iqtisadiyyatın şaxələndirilməsi siyasətinin uğurlu nəticəsidir. Doqquz ayda ölkənin valyuta ehtiyatları 3 milyard dollar artaraq 45 milyard dollara çatıb.

Cənab Prezident bu yaxınlarda orbitə çıxarılmış "Azerspace-2" peykini ölkə üçün uğurlu bir addım kimi qeyd edərək demişdir: "Bu, kommersiya baxımından çox əlverişli layihədir, özünü tam doğruldacaq və bizə böyük həcmdə valyuta gətirəcək. Bu, bir ixrac növüdür. Eyni zamanda, kadr hazırlığı, texnologiyaların inkişafı baxımından çox önəmli layihədir. Biz haqlı olaraq fəxr edə bilərik ki, bizim indi 3 peykimiz vardır".

Azərbaycanın hərtərəfli inkşaf strategiyasında yüksək səviyyəli infrastruktur quruculuğu mühüm əhəmiyyət kəsb edir. Qürur hissi ilə deyə bilərik ki, bu gün ölkəmiz infrastruktur təminatı baxımından dünyada qabaqcıl yerlərdən birini tutur. Bütün ölkə boyu müasir infrastruktur obyektlərinin yaradılması 2018-ci ildə də diqqət mərkəzində saxlanılıb. Regionlarda infrastruktur layihələrin icrası, o cümlədən yol-nəqliyyat, elektrik, qaz və su təchizatı infrastrukturunun yenilənməsi işləri görülür və bu gün də davam etməkdədir. İndi dördüncü Dövlət Proqramı hazırlanır. Cənab Prezident bildirmişdir ki, proqramda bu gün hələ də görə bilmədiyimiz işlər öz əksini tapmalıdır ki, qarşımızda duran bütün vəzifələr icra edilsin.

Nazirlər Kabinetinin iclasında cənab Prezident korrupsiya və rüşvətxorluğa qarşı mübarizənin gücləndirilməsi, tikinti, şəhərsalma, ekologiya və sair sahələrdəki neqativ halların aradan qaldırılması üçün konkret tapşırıqlar vermişdir. Dövlətimizin başçısı kölgə iqtisadiyyatının aradan qaldırılması məsələsini xüsusi vurğulayaraq qeyd etmişdir ki, vergidən yayınmalara son qoyulmalıdır. Sahibkarlar vergiləri tam ödəməlidirlər. Heç kimə heç bir güzəşt edilmir və edilməyəcək. Əgər hansısa bir dövlət məmuru sahibkarlara xüsusi şərait yaratmaq üçün qanunsuz əməllər edəcəksə, çox ciddi şəkildə cəzalandırılacaq.

Beləliklə, 9 ayın yekunları, cənab Prezidentin qarşıya qoyduğu vəzifələr bir daha göstərir ki, Azərbaycan iqtisadiyyatı inkişaf edir və gələcəkdə daha böyük tərəqqiyə nail olunacaqdır. Bunun əsasında isə ölkəmizdə olan ictimai-siyasi sabitlik və iqtidar - xalq birliyi dayanır.

**Xanımlar və cənablar!**

2018-ci ilin doqquz ayınının sosial-iqtisadi inkişafının nəticələri rayonumuzda da müsbət olmuşdur. Keçən ilin eyni dövrü ilə müqayisədə bu il rayonda iqtisadiyyatın əsas sahələrində istehsal olunmuş məhsul və xidmətlərin ümumi həcmi 0,8 faiz artmışdır.Sənayedə artım 0,2 faiz, tikintidə 2,1 dəfə, nəqliyyatda 4 faiz, rabitədə 11 faiz, ticarətdə 1,1 faiz olmuşdur.

Qeyri-neft sektorunun aparıcı sahəsi kimi kənd təsərrüfatının inkişafı sahəsində aparılan işlər daim diqqət mərkəzində saxlanılır.

İlin doqquz ayında rayon üzrə 164 milyon 583 min 600 manatlıq kənd təsərrüfatı məhsulları istehsal olunmuşdur.

Cari ilin məhsulu üçün rayonda 36 min 484 hektar sahədə kənd təsərrüfat bitkiləri əkilmişdir.

Bundan 65 min 798 ton dənli bitkilər, 3 min 200 ton qarğıdalı, 141 min 477 ton kartof, 25 min 19 ton tərəvəz, 574 ton bostan bitkiləri, 61 ton günəbaxan, 18 min ton şəkər çuğunduru, 9 min 874 ton meyvə və giləmeyvə, 7 min 375 ton üzüm, 28 min 684 ton yem bitkiləri istehsal olunmuşdur.

Dənli bitkilərin məhsuldarlığı keçən illə müqayisədə 0,1 faiz artaraq 32,1 sentner, o cümlədən buğdanın məhsuldarlığı 32,4 sentner olmuşdur. Respublikanın orta göstəricisindən yüksək olmasına baxmayaraq, bu göstəricini heç də qənaətbəxş hesab etmək olmaz. Rayonumuzda torpaq imkanlarının məhdudluğunu nəzərə almaqla biz taxılçılıqda intensiv inkişafa nail olmalıyıq.

Bu il kartofçuluqda keçən illə müqayisədə məhsul istehsalı 16 faiz, məhsuldarlıq isə 12,1 faiz azalmışdır. Fermerlər və mütəxəssislər bunu kartof toxumunun keyfiyyətsiz olması ilə əlaqələndirirlər. Tovuz Aqrar İnkişaf Mərkəzi növbəti əkin mövsümü üçün toxum tədarükünü nəzarətdə saxlamalı və fermerlərin yalnız sertifikatlaşdırılmış toxum növləri ilə təmin olunmaları üçün lazımi tədbirlər görməlidir.

*(Əvvəli 1-ci səhifədə)*

# Bütün vəzifələr uğurla və vaxtında icra edilir

*(Davamı 2-ci səhifədə)*





Bu mövsümdə fermerlərimiz istixanalarda yetişdirilmiş məhsulun satışından 3 milyon 813 min manat, qızdırılmayan selofan altı yerkökü əkinlərindən isə 3 milyon 500 min manat gəlir əldə etmişlər. Bu gəlirli sahənin genişləndirilməsi üçün müasir tipli istixanaların tikintisi planlaşdırılır.

Cənab Prezident çıxışında üzümçülük və şərabçılıq məsələləri üzərində xüsusi dayanmış və bunun ölkə iqtisadiyyatı üçün böyük əhəmiyyətini qeyd etmişdir. Eyni zamanda bildirmişdir ki, "üzümçülük mənzərəni də gözəlləşdirir, bölgəyə tam yeni bir mədəniyyət gətirir".

Son illər rayonda fermerlər üzümçülüyün dirçəldilməsinə maraq göstərirlər. Hazırda üzüm bağlarının ümumi sahəsi 725 hektara çatdırılmışdır. Bu il rayonda 7 min 375 ton məhsul isehsal olunmuşdur. Bu ötən illə müqayisədə 1094 ton çoxdur. Məhsul yığımı davam edir. Cari ildə 5 hektar sahədə yeni üzüm bağları salınmışdır.

Üzümçülüyün inkişafı özü ilə bərabər emal sənayesinin yaradılması zərurətini də ortaya qoyur. Bizdə müasir texnologiya əsasında mini şərab zavodlarının qurulmasına ehtiyac vardır. Bunun üçün sahibkarlara müraciət edir və onlara lazımi dəstəyimizi təklif edirik.

Rayonda kənd təsərrüfatının ənənəvi sahələri inkişaf edir. 2016-cı ildə rayon üzrə cəmi 1 ton 560 kiloqram, 2017-ci ildə 6 ton 870 kiloqram barama istehsal edildiyi halda cari mövsümdə barama istehsalı 9 ton 781 kiloqrama çatdırılmışdır. Baramaçılığın inkişafı istiqamətində həyata keçirdiyimiz tədbirlər növbəti illərdə bu sahənin daha da genişləndirilməsinə imkan verəcəkdir. Bundan ötrü ilk növbədə yem bazasının müəyyən edilməsi və barama otaqlarının hazırlanması zəruridir. Ona görə də gecikmədən bu işlərə başlanması təşviq olunmalıdır.

Nazirlər Kabinetinin iclasında tütünçülüklə bağlı aparılan işləri təhlil edərkən cənab Prezident bu sahənin inkişafının əhəmiyyətindən, iqtisadi səmərəsindən danışmışdır. Biz də bu il 50 ha sahədə tütün əkimişik və bu sahədə 200 nəfər işçi qüvvəsi çalışır. Hazırda tütün sahələrində məhsul yığımı başa çatmaq üzrədir. Sahələrdə yetişdirilən tütün yarpaqları qurudulmuş və tədarük məntəqələrinə verilmək üçün hazır vəziyyətdədir. Artıq qurudulmuş tütünün tədarük məntəqələrinə daşınmasına başlanılmışdır.

Rayonda heyvandarlığın inkişafı məsələləri diqqət mərkəzində saxlanılır. Hesabat dövründə rayonda 6 min 478 ton ət, 30 min 24 ton süd, 15 milyon 280 min ədəd yumurta, 410 ton yun istehsal olunmuşdur. Ötən ilin eyni dövrü ilə müqayisədə ət istehsalı 71 ton, süd istehsalı 120 ton, yumurta istehsalı 300 min ədəd, yun istehsalı 500 kiloqram artmışdır.

Rayonda heyvandarlıq istiqamətli Aqroparkın tikintisi başa çatmaq üzrədir. Hesab edirik ki, burada heyvandarlıqda məhsuldarlığın artırılması hesabına ümumi məhsul istehsalının artmı da təmin olunacaqdır. Eyni zamanda Aqroparkda 100 nəfərin daimi işlə təmin olunması nəzərdə tutulub.

Rayon iqtisadiyyatına özəl sərmayənin cəlb olunması əsas hədəfimizdir. Hesabat dövründə iqtisadiyyatımıza 32 milyon 523 min manat investisiya qoyulmuş, bu əvvəlki ilin müvafiq dövrünə nisbətən 2,1 dəfə çoxdur. İnvestisiyanın 11 milyon 701 min manatı qeyri-dövlət, o cümlədən, 4 milyon 438 min manatı özəl sərmayədir.

Nazirlər Kabinetinin iclasındakı yekun nitqində cənab Prezident demişdir: "İlk növbədə, biz daxili tələbatı təmin etməliyik, məhsuldarlığı artırmalıyıq, elmi yanaşmanı tətbiq etməliyik və ixrac imkanlarımızı genişləndirməliyik". Cənab Prezidentin bu çağırışları kənd təsərrüfatının davamlı inkişafı üçün əsas istiqamətdir və fəaliyyətimizi bu istiqamətdə qurmalıyıq.

Cənab Prezident çıxışında meliorasiya və irriqasiya işlərinə geniş yer ayırmış, bu sahədə ölkədə çox böyük işlər görüldüyünü xüsusi vurğulamışdır.

Bizim rayonda da torpaqların su təminatının yaxşılaşdırılması istiqamətində müəyyən işlər görülür. Tovuzçay su anbarı üzərində nasos stansiyasının quraşdırılması başa çatdırılmışdır. Hazırda "Ağdağ" adlanan əraziyə və Yuxarı Öysüzlü kəndinin yuxarı sahələrinə suyun vurulması üçün ikinci pillə nasos stansiyasında quraşdırma işləri aparılır.

Cənab Prezidentin sərəncamına əsasən 2018-ci ildə rayonda 12 ədəd subartezian quyusunun qazılması nəzərdə tutulmuşdur. Hal-hazırda subartezian quyularında son tamamlama işləri görülür. Növbəti ildə də bu işlər davam etdiriləcəkdir.

Əvvələr dediyimiz bir fikri bir daha təkrar edirik ki, torpaqların dayanıqlı suvarma suyu ilə təmin edilməsi üçün sınaqdan çıxmış texnologiyaların tətbiq olunmasına önəm verilməlidir. Aqrar İnkişaf Mərkəzi, Aqrolizinq ASC-nin rayon şöbəsi, suvarma sistemləri idarəsi bu sahədə fermerlər arasında maarifləndirmə işlərini daha da genişləndirməlidirlər.

Hesabat dövründə Sahibkarığın İnkişafı Fondu tərəfindən hüquqi və fiziki şəxslərə kənd təsərrüfatının inkişafı məqsədilə 33 layihə üzrə 4 milyon 645 min manat kredit verilmişdir. Digər banklardan 6 min 513 fiziki şəxsə 17 milyon 232 min manat vəsait verilmişdir.

Rayonda doqquz ay ərzində 1692 yeni iş yeri açılmışdır. Bunlardan 987-si daimi iş yerləridir.

2018-ci ilin 9 ayı ərzində rayon üzrə 413 ailəyə elektron müraciət əsasında ünvanlı dövlət sosial yardımı ödənilib ki, bunun da aylıq məbləği 66 min 780 manat təşkil edir.

Bu məsələ ilə əlaqədar cənab Prezident qeyd etmişdir ki, özünüməşğulluq proqramı işsizliyin, xüsusilə bölgələrdə işsizliyin, yoxsulluğun aradan qaldırılması üçün çox önəmli bir vasitə olacaq. Eyni zamanda, bu gün sosial yardım alan ailələr dövlət tərəfindən onlara lazımi vəsait veriləndən sonra öz həyatlarını özləri quracaqlar və öz maliyyə imkanlarını böyük dərəcədə artırmış olacaqlar.

Özünüməşğulluq proqramına uyğun olaraq hesabat dövründə rayon üzrə 172 nəfər təlim kurslarına cəlb edilmiş və 66 nəfər qiymətləndirmədən keçmişdir. Yaxın vaxtlarda onlara müvafiq qaydada əməli dəstək göstəriləcəkdir.

Rayonda vergilərin ödənilməsi sahəsində müsbət dinamika müşahidə olunmaqdadır. Rayon üzrə təsdiq olunmuş 7 milyon 370 min manat proqnoza qarşı 9 milyon 852 min manat büdcəyə vəsait daxil olmuş, proqnoz 133,7 faiz yerinə yetirilmişdir. Keçən ilin müvafiq dövrünə nisbətən büdcəyə 2 milyon 567 min manat çox vəsait daxil olmuşdur. Rayonun xərcləri 91,8 faiz icra olunmuşdur. Yerli xərcləri tənzimləmək üçün dotasiya alınmamış, xərclər tam olaraq rayonun gəlirləri hesabına həyata keçirilmişdir.

Bununla yanaşı, doqquz ayın yekununa görə bəzi vergi növləri üzrə proqnoz yerinə yetirilməmişdir. Ona nail olmaq lazımdır ki, bütün vergi növləri üzrə proqnozlar yerinə yetirilsin. Digər narahatlıq doğuran bir məsələ qeydiyyata alınmış ümumi vergi ödəyicilərinin cəmi 16 faizinin fəaliyyət göstərməsidir. Bu məsələ müvafiq qurumlar tərəfindən araşdırılmalı və aidiyyatı üzrə məsələ qaldırılmalıdır. Cənab Prezidentin göstərişlərinə uyğun olaraq uçot sisteminin qurulmasında və kölgə iqtisadiyyatına qarşı mübarizənin təşkilində vergi orqanlarına hər cür kömək göstərilməlidir. Sahibkarların, hüquqi və fiziki şəxslərin vergidən yayınma hallarının qarşısı qətiyyətlə alınmalıdır. Bu sahədə şəffaflığa tam nail olunmalı, korrupsiya və rüşvətxorluğa şərait yardan hallar aradan qaldırılmalıdır.

Rayonun elektrik təsəsrrüfatı keçən əsrin 60-70-ci illərində istismara verilmişdir. Uzun illər elektrik verilişi xəttlərinin tikintisi və yenidən qurulması sahəsində yenilənmə işləri aparılmadığına görə elektrik avadanlıqları, dayaqlar, naqillər istismar müddətini başa vurmuşdur. Yeni salınan yaşayış massivlərinin enerji təchizatı primitiv qaydada vətəndaşların özləri tərəfindən kortəbii olaraq quraşdırılmışdır. Dağlıq ərazilərdə vəziyyət daha ağırdır. Bəzi yerlərdə dayaqlar çürüyərək sıradan çıxmış, yüksək gərginlikli elektrik naqilləri yer səthinə yaxın səviyyəyə enmişdir. Bu da ətrafdakılar üçün təhlükə mənbəyidir.

Elektrik təsərrüfatında müəyyən yenilənmə, təmir-bərpa işləri aparılsa da bunlar təsərrüfatın dayanıqlı istismarı üçün yetərli deyildir.

Qarşıdan gələn qış fəsli bu sahədə əsaslı dönüş yaradılmasını daha zəruri edir. Ona görə də müvafiq tədbirlər görülməli, əhalinin enerji təchizatında olan nöqsanlar aradan qaldırılmalıdır.

*(Davamı 3-cü səhifədə)*

# Bütün vəzifələr uğurla və vaxtında icra edilir

*(Əvvəli 2-ci səhifədə)*

"Yaşayış məntəqələrinin qazlaşdırılması ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 5 mart 2018-ci il tarixli Sərəncamına əsasən bu il rayonun Hunanlar və Əhmədabad kəndlərində qazlaşdırılma işləri aparılmışdır. Bununla da, rayonda qazlaşmanın səviyyəsi 90 faizə çatacaqdır.

Hələ də rayonun dağlıq ərazilərində yerləşən 50 yaşayış məntəqəsində 3041 abonent qazlaşdırılmamışdır. Eyni zamanda qazlaşdırılmış yaşayış məntəqələrinin yeni massivlərində 1825 abonentin qazlaşdırılmasına ehtiyac vardır. Bu istiqamətdə mükəmməl təkliflər paketi hazırlanaraq aidiyyəti instansiyalara təqdim olunmuşdur.

Əhalinin içməli su ilə təminatı sahəsindəki problemlər və görülən işlər barədə biz ötən hesabatımızda ətraflı məlumat vermişdik. Həyata keçirdiyimiz tədbirlər nəticəsində yay mövsümündə şəhər əhalisinin içməli su təminatını əsasən ödəyə bildik. Hazırda cənab Prezidentin müvafiq Sərəncamları əsasında Tovuz şəhərinin, eləcə də Əlimərdanlı, Xatınlı, Qaraxanlı, Qədirli və Cilovdarlı kəndlərinin içməli su təminatı layihələri icra olunmaqdadır. Yaxın 2-3 ay ərzində bu layihələrin icrası tam başa çatdırılacaqdır. Bunlarla yanaşı istər şəhər, istərsə də kəndlərdə əhalinin su ilə təminatındakı subyektiv amillər hələ də tam aradan qaldırılmamışdır. Tovuz sukanal idarəsinin rəhbərliyi bilavastə işin təşkili ilə bağlı nöqsanların aradan qaldırılmasını təmin etməlidir.

Rayonda yol infrastrukturunun yenilənməsi işləri davam etdirilir. 10 mindən çox əhalinin yaşadığı 12 yaşayış məntəqəsinin birləşdirən Əsrik Cırdaxan-Kirən-Saladınlı kəndlərarası avtomobil yolunun tikintisi davam etdirilmiş və yolun 19,5 kilometrinə asfalt örtük qoyulmuşdur. Hazırda həmin layihə çərçivəsində 4,5 km uzunluğunda Molla Ayrım-Yanıqlı və 8 km uzunluğunda Baqqallı-Saladınlı-Çataq kəndlərarası yolların hamarlanması, qum-çınqıl örtüyü ilə təmir olunması işləri həyata keçirilir.

Cənab Prezidentin tapşırıqlarına uyğun olaraq rayon ərazisində mövcud olan bütün kəndlərarası yolların inventarizasiyası aparılmış və əsaslı təmirə ehtiyacı olan yollar barədə təkliflər hökumətə təqdim edilmişdir.

2018-ci ilin doqquz ayı ərzində rayonda müxtəlif istiqamətlərdə tikinti quruculuq və abadlıq işləri görülmüşdür.

Tovuz şəhərinin Həzi Aslanov küçəsi və Heydər Əliyev prospektində səkilərə 2860 kvm tomet tavalar döşənmiş, 2025 metr uzunluqda beton bort daşları düzülmüşdür, Qovlar şəhərinin Vağzal küçəsində səkilərə bardürlər düzülmüş, asfalt örtük salınmış və Dostluq parkında abadlıq işləri görülmüşdür. Tovuz şəhərində beş küçəyə asfalt döşəmə vurulmuşdur. "Çoxmənzilli binaların təmiri" işləri üzrə 12 ədəd iki mərtəbəli yaşayış binalarında əsaslı təmir işləri aparılır.

Bu il sentyabrın 15-də Ağbulaq kənd orta məktəbinin yeni binası istifadəyə verilmişdir. Qoşa, Qayadibi, Sarıtala, Hacıhəsənli, Qaralar və Şamlıq kəndlərində modul tipli məktəblərin quraşdırılması işləri davam etdirilir. Qovlar İnternat Məktəbində aparılan əsaslı təmir işləri yekunlaşmaq üzrədir. Qovlar şəhərində 2 saylı körpələr evi-uşaq bağçasının tikintisi aparılır. Bu günlərdə Alakol kəndində 760 şagird yerlik yeni məktəb binasının tikintisinə başlanmışdır. Bundan sonra da sosial infrastrukturla bağlı tədbirlərin davam etdirilməsi nəzərdə tutulur.




Tovuz şəhərində "Tarix Diyarşünaslıq Muzeyi" və "Bayraq Muzeyi"nin tikintisində işlər əsasən başa çatmışdır. Region əhalisinə xidmət göstərəcək "ASAN xidmət" mərkəzinin tikintisində işlər sürətlə davam etdirilir.

İclasda qanunsuz tikililər məsələsinə toxunan cənab Prezident qeyd etmişdir ki, "Bakı şəhərində və digər şəhərlərdə qanunsuz tikililərə son qoyulmalıdır və son qoyulur. Müvafiq Sərəncam imzalanıb, Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin icazəsi olmadan bir dənə də bina tikilə bilməz".

Müşahidələr göstərir ki, bizim rayonumuzda da qanunsuz tikililər aparılması hallarına yol verilir. Aidiyyatı qurumlar tərəfindən lazımi maarifləndirmə aparılmadığından və lazımi tələbkarlıq göstərilmədiyindən vətəndaşlar heç bir icazə və məlumatlandırma icraatı olmadan tikililər aparır. Sonradan onları sənədləşdirə bilmir və yalnız bundan sonra necə deyərlər əl-ayağa düşürlər. Bu qətiyyən yol verilməz bir vəziyyətdir. İcra nümayəndələri, bələdiyyələr, xüsusən icra hakimiyyətinin memarlıq və tikinti şöbəsi bu sahədə qanunçuluğa ciddi əməl olunmasını təmin etməlidirlər.

Cənab Prezident həmçinin binaların həyətlərinin abadlaşdırılması, orada yaşlı insanlar, eyni zamanda uşaqlar üçün şərait yaradılması, qanunsuz tikililərin sökülməsi barədə göstəriş vermişdir. Rayonumuzda da ələqədar qurumlar bütün ictimai yaşayış binalarının həyətlərindəki vəziyyəti yerində öyrənməli, müvafiq tədbirlər görməli və təkliflər verməlidirlər.

Dövlətimizin başçısı ağacların kəsilməsi məsələsini sərt tənqid edərək demişdir: "Bir daha demək istəyirəm ki, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin rəyi olmadan əgər kimsə bir ağac kəsirsə, onda özündən küssün". Bu ciddi xəbərdarlıqdan hər kəs, xüsusilə meşə mühafizə xidməti, icra nümayəndələri və bələdiyyələr nəticə çıxarmalı, yaşıllıqların qorunmasında qanunçuluğun tələblərinə əməl olunmasına nəzarəti gücləndirməlidirlər.

Son vaxtlar rayonda ətraf mühitin mühafizəsi, məişət tullantılarının yığılması sahəsində müəyyən irəliləyiş müşahidə olunur. Lakin görülən işləri hələ qənaətləndirici hesab etmək olmaz. Vaxtilə yerlərdə fəaliyyət göstərmiş "Təmizlik" müəssisələrinin fəaliyyətinin qısa müddət ərzində bərpa olunması barədə tapşırıqlar verilmişdir. Biz ona nail olmalıyıq ki, hər yerdə təmizlik, səliqə-səhman olsun. Plastik tullantıların yığılması üçün parklarda tutumların qoyulması təqdirəlayiq bir işdir. Şəhərin digər yerlərində də bunların sayının artırılmasını vacib hesab edirik.

**Hörmətli yığıncaq iştirakçıları!**

Təhsil, səhiyyə, mədəniyyət, turizm, gənclərlə iş, hərbi vətənpərvərlik tərbiyəsi, bədən tərbiyəsi və idman sahələrində, məktəbəqədər təhsil müəssisələrində aparılan işlər davam etdirilir. İctimai birliklər, dini qurumlar və qeyri-hökumət təşkilatları ilə fəaliyyətimizi qarşılıqlı şəkildə qururuq. İctimai-siyasi vəziyyət və kriminogen durum sabitdir. Radikal-dini təriqətçilərə meyilli qruplar yoxdur.

Hesabat dövründə "Yerli İcra Hakimiyyətləri haqqında Əsasnamə"yə uyğun olaraq RİH başçısı yanında Şuranın iclaslarının vaxtlı-vaxtında keçirilməsi təmin olunmuş, yerlərdə İH başçısının səyyar qəbul-görüşləri keçirilmiş, vətəndaşların yazılı və şifahi müraciətlərinə baxılmışdır.

İlin doqquz ayında rayon İH başçısı aparatına 712 vətəndaş müraciəti daxil olmuş, başçı tərəfindən 2082 nəfər vətəndaş qəbul edilmişdir. Vətəndaş müraciətləri əsasən bələdiyyələrin və yerli icra nümayəndələrinin fəaliyyəti, torpaq, elektrik içməli su və təbii qaz təchizatı, , əhalinin sosial müdafiəsi məsələləri, iş tələbi, birdəfəlik maddi yardım məsələləri barədə olmuşdur. Daha çox müraciətlər Qovlar şəhəri, Aşağı Quşçu, Aşağı Öysüzlü, Alakol, Əyyublu kəndlərindən olmuşdur. Vətəndaş müraciətlərinə diqqətlə yanaşılması və hər bir məsələnin araşdırılaraq müraciət müəlliflərinə əsaslandırılmış cavablar verilməsi barədə tərəfimizdən aidiyyəti üzrə tapşırıqlar verilmişdir. Bu məsələ rəhbər işçilərin fəaliyyətinin qiymətləndirilməsi üçün əsas meyarlardan biridir.

Hesabat dövründə yaşayış məntəqərində 36 səyyar qəbul-görüş keçirilmiş və bu görüşlərdə yerli sakinlər tərəfindən 209 təklif və tənqidi qeyd səslənmişdir. Qaldırılmış məsələlərin həlli ilə ələqədar yerində aidiyyatı şəxslərə tapşırıqlar verilmiş, bəzi məsələlərlə bağlı mərkəzi icra orqanları qarşısında məsələlər qaldırılmışdır. Bu təkliflərin bəzilərinin rayonun sosial-iqtisadi inkişaf planına daxil edilməsi nəzərdə tutulur. Səyyar qəbul-görüşlərdə sakinlər tərəfindən səsləndirilən təkliflərin və tənqidi qeydlərin 41 faizi operativ qaydada həll edilmişdir.

**Xanımlar və cənablar!**

Nazilər Kabnetinin iclasında cənab Prezidentin qarşıya qoyduğu vəzifələr bizim üçün müfəssəl fəaliyyət proqramıdır. Hər birimiz cənab Prezidentin tapşırıqlarının icrası ilə ələqədar səfərbər olmalı və üzərimizə düşən vəzifələrin layiqincə yerinə yetirilməsi üçün səylərimizi daha da artırmalıyıq.

İcazə verin, Azərbaycan dövləti və xalqı naminə gördüyü misilsiz işlərə, rayonumuza göstərdiyi diqqət və qayğıya görə Zati-aliləri cənab Prezidentə dərin minnətdarlığımı bildirim və əmin edim ki, Tovuz rayonunda onun hər bir tapşırıq və tövsiyyələri bundan sonra da böyük məsuliyyət hissi ilə icra ediləcəkdir.

**Diqqətinizə görə sağ olun!**

* * *

Məruzə ətrafında çıxışlar olmuşdur.

Statistika idarəsinin rəisi Niyazi Tağıyev, Telekommunikasiya qovşağının rəisi Səbuhi Hüseynov, Hacıalılı kənd icra nümayəndəsi Sahib Quliyev, "Tovuz Aqro" MMC-nin direktoru Arzuman Əhmədov, "Azərxalça" ASC Tovuz filialının direktoru Sarıtel Xəlilova çıxış edərək rayonun sosial-iqtisadi sahədə əldə etdiyi nailiyyətlərdən, əhaliyə göstərilən rabitə xidmətindən, sərhəd kəndlərinin həyat tərzindən, sahibkarlığın inkişafı və ona göstərilən dövlət qayğısından, əhalinin məşğulluğu sahəsində görülən işlərdən danışmışlar.

Geniş Şura iclasında rayonun sosial-iqtisadi inkişafı və qarşıda duran vəzifələr barədə müvafiq qərar qəbul edilmişdir.

# Səyyar qəbul-görüşlər davam etdirilir

## Əlibəylidə görüş

Tovuz rayon İcra Hakimiyyətinin başçısı cənab Məmməd Məmmədovun növbəti səyyar qəbul-görüşü rayonun sərhəd kəndi olan Əlibəyli kəndində keçirilmişdir. Tədbirdə Əlibəyli kənd sakinləri, rayonun ayrı-ayrı xidmət sahələrinin rəhbərləri, yerli qurumların nümayəndələri iştirak etmişdir.

Səyyar qəbul-görüşü giriş sözü ilə rayon icra hakimiyyətinin başçısı cənab Məmməd Məmmədov açmış və ölkəmizdə sərhəd kəndlərinə göstərilən diqqət və qayğıdan, ordu quruculuğu sahəsində görülən işlərdən, son zamanlar həyata keçirilən layihələrdən və bundan sonra icrası nəzərdə tutulan işlərdən danışmışdır.

Cənab M. Məmmədov Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin vətəndaş müraciətlərinə həssaslıqla yanaşılması, ölkədə məmur-vətəndaş münasibətlərinin formalaşdırılması barədə tapşırıqlarını diqqətə çatdırmış və sakinlərdən öz problemlərini sərbəst olaraq dilə gətirmələrini xahiş etmişdir.

İlk öncə Əlibəyli kəndində görülən işlərlə bağlı yerli icra nümayəndəsinin və aidiyyatı xidmət təşkilatlarının rəhbərlərinin məlumatları dinlənilmişdir. Bundan sonra sakinlər keçmiş sovxozdan qalmış subartezian quyusunun təmiri, elektrik transformatorunun təmiri, yaşayış evlərinə istinad divarlarının tikilməsi layihəsinin davam etdirilməsi, müharibə veteranı adının və vəsiqəsinin verilməsi, içməli su məsələsi, suvarma suyunun verilməsinin təşkili və digər məsələlərlə bağlı müraciətlər etmişlər. Sakinlər tərəfindən qaldırılan bütün məsələlər üzrə müvafiq tapşırıqlar verilmişdir. Çıxış edən sakinlər təmas xəttində rahat yaşayıb işlədiklərini, ordu ilə xalq arasında qarşılıqlı inam və birlik olduğunu qeyd edərək təhlükəsizlikləri təmin olunduğu üçün ölkə rəhbərliyinə minnətdarlıqlarını ifadə etmişlər.

*"Tovuz"*

## Kəndlilər görülən işlərdən razıdırlar

***Tovuz rayon İcra Hakimiyyətinin başçısı cənab Məmməd Məmmədovun növbəti səyyar qəbul-görüşü rayonun dağ kəndləri olan Qaradaş və Göyəbaxan kənd sakinlərinin iştirakı ilə Qaradaş kəndində keçirilmişdir. Səyyar qəbul-görüşdə Qaradaş, Qayadibi, Qonaqlı və Göyəbaxan kəndlərinin sakinləri, ayrı-ayrı xidmət sahələrinin rəhbərləri,yerli qurumların nümayəndələri iştirak etmişlər.***

Səyyar qəbul-görüşü giriş sözü ilə rayon İcra Hakimiyyətinin başçısı cənab Məmməd Məmmədov açmış və ölkəmizdə ucqar dağ kəndlərinə göstərilən dövlət qayğısından, son zamanlar həyata keçirilən layihələrdən və bundan sonra icrası nəzərdə tutulan işlərdən danışmışdır.

Cənab M.Məmmədov qeyd etmişdir ki, ulu öndər Heydər Əliyevin əbədiyaşar siyasəti möhtərəm Prezidentimiz cənab İlham Əliyev tərəfindən çox böyük məharətlə davam etdirilir. Uğurlarımızı saymaqla qurtarmaq olmaz. İndi Azərbaycan dünya ictimaiyyətinin diqqət mərkəzində olan ölkələrindən biridir. 26 sentyabr tarixində cənab Prezidentin "Azerspace-2" telekommunikasiya peykinin orbitə çıxarılması ilə bağlı Azərbaycan xalqına müraciəti hər birimizə çox böyük qürur verir. Azərbaycan artıq kosmik ölkələr sırasındadır.

Cənab Prezidentin qeyd etdiyi kimi, Azərbaycan qarşıya qoyduğu bütün vəzifələri uğurla icra edir. Bizim yolumuz inkişaf yoludur, tərəqqi yoludur və bu gün Azərbaycan dünyada müasir texnologiyaların inkişafında öz dəyərli sözünü deyir. "Azerspace-2" telekommunikasiya peykinin orbitə çıxarılması bizim növbəti tarixi qələbəmizdir. Bundan sonra da Azərbaycan yalnız uğurlar, qələbələr yolu ilə gedəcək.

İlk öncə Qaradaş kəndində görülən işlərlə bağlı yerli icra nümayəndəsinin və aidiyyatı xidmət təşkilatlarının rəhbərlərinin məlumatları dinlənilmişdir.

Bundan sonra Qaradaş və Göyəbaxan kənd sakinləri son vaxtlar dağ kəndlərində icra olunan layihələrdən razılıqlarını və buna görə möhtərəm Prezidentimiz İlham Əliyevə minnətdarlıqlarını ifadə edərək bölgənin sosial-iqtisadi inkişafı və şəxsi problemləri ilə bağlı bir sıra məsələləri dilə gətirmişlər. Göyəbaxan kənd sakinləri kəndarası yolların cari təmir olunması, Göyəbaxan kəndində modul tipli məktəb tikilməsi, feldşer-mama məntəqəsinin açılması, Qaradaş kənd sakinləri dağ kəndlərində elektrik təsərrüfatının qaydaya salınması, qəzalı vəziyyətdə olan elektrik dirəklərinin və naqillərinin dəyişdirilməsi, yeni inşa olunmuş kənd məktəbinə istilik sistemlərinin işə salınması üçün təbii qaz verilməsi, kənddəki həkim məntəqəsinin fəaliyyətinin bərpa olunması, və digər sosial məsələlərlə bağlı təkliflər səslənmişdir.

Sakinlərdən bir qrupu öz şəxsi problemləri ilə bağlı RİH başçısına müraciət etmişlər.Səyyar qəbul-görüşdə vətəndaşlar tərəfindən qaldırılan məsələlərin öyrənilməsi, araşdırılması və müvafiq tədbirlər görülməsi barədə aidiyyəti üzrə tapşırıqlar verilmiş, onların qanuna uyğun qaydada mərhələlərlə həll olunacağı vətəndaşlara bildirilmişdir.

*"Tovuz"*

## Tovuz şəhərinin problemləri həll edilir

Tovuz rayon İcra Hakimiyyətinin başçısı cənab Məmməd Məmmədovun yerlərdə keçirdiyi səyyar qəbul-görüşlər əhalini narahat edən məsələlərin operativ həlli üçün əhəmiyyətli olduğundan sakinlər tərəfindən razılıqla qarşılanır. Növbəti belə səyyar qəbul-görüş oktyabrın 10-də Tovuz şəhərində keçirilmişdir.




Səyyar qəbul-görüşü giriş sözü ilə rayon İcra Hakimiyyətinin başçısı cənab Məmməd Məmmədov açmış və Tovuz şəhərinin sosial-iqtisadi inkişafı ilə bağlı görülən işlərdən danışmış, iştirakçıları onları maraqlandıran məsələlərlə bağlı fəal olmağa çağırmışdır.

Cənab M.Məmmədov oktyabr ayının 9-da Prezident İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2018-ci ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasının keçirildiyini diqqətə çatdırmış və cənab Prezidentinin çıxışında qarşıya qoyulan vəzifələrdən danışaraq bunun mükəmməl fəaliyyət proqramı olduğunu qeyd etmişdir.

Bundan sonra Tovuz şəhər sakinləri son vaxtlar Tovuz şəhərində icra olunan layihələrdən razılıqlarını və buna görə möhtərəm Prezidentimiz cənab İlham Əliyevə minnətdarlıqlarını ifadə edərək şəhərin sosial-iqtisadi inkişafı və şəxsi problemləri ilə bağlı bir sıra məsələləri dilə gətirmişlər.

Sakinlər şəhərin küçələrinə asfalt-beton örtük qoyulması işlərinin davam etdirilməsi, elektrik təsərrüfatında olan nasazlıqların aradan qaldırılması, şəhərin M.Musayev küçəsi ərazisində körpələr evi-uşaq bağçasının açılması, həmin küçədəki çoxmənzilli binaların həyətinin abadlaşdırılması, içməli su və kanalizasiya sistemlərində olan qüsurların aradan qaldırılması, iş təlləbi, sosial müdafiə məsələləri barədə təklif və tənqidi qeydlərlə çıxış etmişlər.

Vətəndaşlar tərəfindən qaldırılan hər bir məsələyə münasibət bildirilmiş, qanunauyğun izahatlar verilmiş, həlli istiqamətində tədbirlərin görülməsi aidiyyatı qurumlara tapşırılmışdır.

Səyyar qəbul-görüşün sonunda cənab M.Məmmədov sakinlər tərəfindən qaldırılan bütün məsələlərin araşdırılacağını, mərhələlərlə icra olunacağını və şəhər ərazisində abadlıq-quruculuq işlərinin bundan sonra da davam etdiriləcəyini vurğulamışdır.

**"Tovuz"**

## Aidiyyəti üzrə tapşırıqlar verildi

***Tovuz rayon İcra Hakimiyyətinin başçısı cənab Məmməd Məmmədovun növbəti səyyar qəbul-görüşü rayonun Vahidli kəndində keçirilmişdir. Səyyar qəbul-görüşdə kənd sakinləri, hüquq-mühafizə orqanları və ayrı-ayrı xidmət sahələrinin rəhbərləri, yerli qurumların nümayəndələri iştirak etmişlər.***

Səyyar qəbul-görüşü giriş sözü ilə rayon İcra Hakimiyyətinin başçısı cənab Məmməd Məmmədov açaraq möhtərəm Prezidentimiz cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə aparılan quruculuq işlərindən, ictimai-siyasi sabitliyin qorunması istiqamətində görülən işlərdən danışmışdır.

Cənab M. Məmmədov əhalini narahat edən problemlərin həlli istiqamətində həyata keçirilən tədbirlər, rayonunun mövcud potesialı və qarşıda duran vəzifələr barədə kənd sakinlərinə məlumat vermişdir.

Görüş zamanı kənd sakinlərindən bir neçəsi çıxış edərək dövlət başçısı cənab İlham Əliyevə minnətdarlıqlarını ifadə etmiş, onları narahat edən bir sıra məsələləri dilə gətirmişlər. Müraciət edən kənd sakinləri Nəriman Axundov, Qiyafət Məhərrəmova, Hamlet Həsənov, Şahin Şirinov torpaq mübahisəsi, körpələr evi-uşaq bağçasında qrupların sayının artırılması, suvarma suyu və xəstəliyi ilə əlaqədar pensiyaya çıxması barədə müraciətlər səsləndirmişlər.

Səyyar qəbul-görüşdə vətəndaşlar tərəfindən qaldırılan məsələlərin öyrənilməsi, araşdırılması və müvafiq tədbirlər görülməsi barədə aidiyyəti üzrə tapşırıqlar verilmişdir.

*"Tovuz"*




# Dövlət Müstəqilliyi Günü münasibəti ilə elmi-praktik konfrans keçirilmişdir

***Yeni Azərbaycan Partiyasının Tovuz rayon təşkilatının akt zalında Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi Günü münasibəti ilə elmi-praktik konfrans keçirilmişdir. Konfransı giriş sözü ilə Tovuz rayon İcra Hakimiyyətinin başçısı cənab Məmməd Məmmədov açaraq qeyd etmişdir ki, 27 il öncə Azərbaycanın Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktı qəbul edilmişdir. Ancaq cəsarətlə demək olar ki, əsl müstəqilliyimiz ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. 1993-cü ilin iyununda xalqın təkidli tələbi ilə hakimiyyətə gələn Heydər Əliyevin zəngin siyasi təcrübəsi, yüksək idarəçilik bacarığı, Vətənə olan tükənməz sevgisi Azərbaycanın dövlət müstəqilliyini təhlükədən qurtardı.***

Ulu öndərin siyasi iradəsi ilə qısa vaxt ərzində Azərbaycanın səsi ən nüfuzlu beynəlxalq təşkilatların kürsüsündən gəldi.

Müstəqilliyin əvəzsiz bir nemət olduğunu və xalqın taleyində çox önəmli rol oynadığını böyük qürur hissi ilə bəyan edən Heydər Əliyev Azərbaycanın müstəqilliyini əbədi və dönməz etdi. 2003-cü il oktyabr ayının 15-də Prezident seçilən cənab İlham Əliyev ötən 15 il ərzində Azərbaycanı dünyanın inkişaf edən ölkələri sırasına çıxarıb. Onun siyasətinin mərkəzində insan amili dayanır, amalı qurub-yaratmaq, xalqını daha xoş günə, daha firavan həyata qovuşdurmaqdır. Xalqa xidmət etmək, hər bir azərbaycanlının Prezidenti olmaq cənab Prezidentin həyat fəlsəfəsidir. Müstəqilliyimizin reallığı ondan ibarətdir ki, Azərbaycan sürətli inkişaf yolunda inamla irəliləyir, onu qarşıdan daha möhtəşəm uğurlar gözləyir.

Cənab M.Məmmədov rayon ictimaiyyətini qarşıdan gələn Dövlət Müstəqilliyi Günü münasibətilə təbrik etdi.Elmi-praktik konfransda YAP Tovuz rayon təşkilatının sədri Məzahir Bayramov "Heydər Əliyev və müstəqil Azərbaycan" mövzusunda, rayon İcra Hakimiyyəti başçısının müavini Təranə Bayramova "Prezident İlham Əliyev və müstəqilliyimizin son 15 ili" mövzusunda, rayon gənclər və idman idarəsinin rəisi Sahib Ələsgərov "Müstəqil Azərbaycan Respublikasının Gənclər siyasəti" mövzusunda məruzələrlə çıxış etmişlər.

Tədbiri Tovuz rayon İcra Hakimiyyətinin başçısı cənab Məmməd Məmmədov yekunlaşdırmışdır.



# Azərbaycan Prokurorluğu-100

***Tovuz rayonu Heydər Əliyev Mərkəzində Azərbaycan Respublikası Prokurorluğunun 100 illik yubileyinə həsr olunmuş tədbir keçirilmişdir.***

***Rayon prokurorluğunun işçiləri və hüquq mühafizə orqanlarının rəhbərləri ilk öncə Ulu Öndər Heydər Əliyevin abidəsi önünə gül çiçək dəstələri qoymuş, xatirəsini ehtiramla yad etmişlər.***

Heydər Əliyev Mərkəzində keçirilən tədbiri giriş sözü ilə Tovuz Rayon İcra Hakimiyyətinin başçısı cənab Məmməd Məmmədov açmış və qeyd etmişdir ki, 1 oktyabr Azərbaycan Respublikasında Prokurorluq işçilərinin peşə bayramı kimi qeyd olunur. Bu bayramın 1 oktyabr tarixində qeyd olunmasının tarixi kökləri vardır. Belə ki, Azərbaycan Xalq Cümhüriyyəti Nazirlər Şurasının 1 oktyabr 1918-ci il tarixli qərarı ilə Prokurorluq orqanları fəaliyyətə başlamışdır. Azərbaycan Prokurorluğu həm Sovetlər dönəmində, həm də müstəqillik illərində çətin və şərəfli bir yol keçmişdir. Dövlətçiliyimizin maraqlarının və qanunun aliliyinin təmin olunması, cinayətkarlığa qarşı mübarizə aparılması, vətəndaşların hüquq və azadlıqlarının qorunması sahəsində əvəzsiz xidmətlər göstərmişdir. Ulu Öndər Heydər Əliyevin 17 iyul 1998-ci il tarixli Sərəncamı ilə "1 oktyabr Prokurorluq işçilərinin peşə bayramı günü" kimi təsis edilmiş və həmin vaxtdan etibarən bu gün prokurorluq işçilərinin peşə bayramı kimi qeyd olunur. Bu il həm də prokurorluq orqanlarının fəaliyyətə başlamasının 100 illik yubileyidir.

Sonra prokurorluq orqanlarının yaradılmasının 100 illiyi münasibəti ilə Tovuz Rayon Prokuroru, baş ədliyyə müşaviri Elçin Qəhrəmanov çıxış etmişdir. E. Qəhrəmanov prokurorluq orqanlarının fəaliyyətindən, 100 il ərzində keçdiyi şərəfli yoldan danışmış və onların əməyinə verilən yüksək qiymətə görə ölkə rəhbərliyinə minnətdarlığını bildirmişdir.

Tədbirdə Tovuz Rayon Məhkəməsinin hakimi Nofəl Mustafayev, Tovuz Rayon Polis Şöbəsinin rəis müavini İslam Əhmədov, Tovuz Rayon Qeydiyyat Şöbəsinin rəisi, rayon Qadınlar Şurasının sədri Kifayət İsmayılova, Tovuz Rayon İcra Hakimiyyəti başçısının Qovlar şəhər inzibati ərazi dairəsi üzrə nümayəndəsi Oruc Binnətov çıxış edərək prokurorluq orqanlarının fəaliyyətindən danışmış, yubley və peşə bayramı münasibətilə təbriklərini çatdırmışlar.

Tədbiri rayon İcra Hakimiyyətinin başçısı cənab M.Məmmədov yekunlaşdıraraq bildirmişdir ki, bu gün Azərbaycan öz müstəqil inkişaf yolu ilə inamla irəlləyir. Xalqımızın firavan həyatı üçün möhkəm iqtisadi əsaslar yaradılmışdır. Həm ölkə miqyasında, həm də regionlar səviyyəsində inkişafımız yüksələn xətlə davam edir. Dünya dövlətləri birliyinə daha sıx inteqrasiya olunan ölkəmizin beynəlxalq nüfuzu əhəmiyyətli dərəcədə artmışdır. Xalqımızın qazandığı bütün uğurlar 2003-cü ildən etibarən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında ölkəmizdə həyata kçirilən müasir dövlətçilik siyasətinin məntiqi nəticəsi, Heydər Əliyev siyasi kursunun təntənəsidir.Təbii ki, bu uğurların qazanılmasında Prokurorluq orqanlarının da özünə məxsus yeri vardır. Hörmətli cənab Baş prokuror Zakir Qaralovun rəhbərliyi ilə prokurorluq əməkdaşları hər zaman qanunçuluğun keşiyində ayıqsayiq dayanmış, müstəqilliyimizin möhkəmləndirilməsinə, dövlət quruculuğuna öz dəyərli töhfələrini vermiş, vətəndaşların hüquqlarının etibarlı müdafiəsini təmin etmişlər. Əminliklə deyə bilərik ki, bundan sonra da prokurorluq orqanları, o cümlədən onun mübariz dəstələrindən biri olan Tovuz rayon prokurorluğu hüquqi dövlət quruculuğu, ictimai-siyasi sabitliyin qorunması, əmin-amanlığın təmin olunması sahəsində üzərinə düşən vəzifələri layiqincə və şərəflə yerinə yetirəcəkdir.



Sonda cənab M. Məmmədov Azərbaycan Respublikası Prokurorluğunun 100 illik yubileyi münasibəti ilə prokurorluq işçilərini təbrik etmiş və gələcək fəaliyyətlərində uğurlar arzulamışdır.

# Tovuz rayonunda 5 oktyabr "Beynəlxalq Müəllimlər Günü" qeyd olundu





**_5 oktyabr "Beynəlxalq Müəllimlər Günü" Tovuzda bayram əhval-ruhiyyəsində qeyd olunmuşdur._**

**_Bu münəsibətlə rayonun qabaqçıl təhsil işçiləri, təlim-tərbiyə işində fərqlənən gənc müəllimlər, ağsaqqallar və rayon ictimaiyyətinin nümayəndələrinin iştirakı ilə bayram tədbiri keçirilmişdir._**

Tədbirdə Tovuz rayon İcra Hakimiyyətinin başçısı cənab Məmməd Məmmədov çıxış edərək Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təhsilə və gənc nəslin hərtərəfli yetişməsinə göstərdikləri qayğıdan bəhs etmişdir. Cənab başçı son dövrlər Tovuz təhsilinin əldə etdiyi uğurlar və yüksək nəticələrdən danışmış, tovuzlu müəllimlərin dövlətin qayğısına təhsildə əldə etdikləri yüksək nailiyyətlərlə cavab verdiyini vurğulamış, "Beynəlxalq Müəllimlər Günü" münasibəti ilə rayon müəllimlərini təbrik etmişdir.

Tədbirdə təhsilin inkişafındakı xidmətlərinə görə təltif olunmuş A.S.Puşkin adına Tovuz şəhər tam orta məktəbinin müəllimi Ceyran Məmmədova, əməkdar müəllimlər İlqar Həsənov və Fazil Məhərrəmov, ağsaqqal müəllim İsa Cavad oğlu çıxış edərək müəllim əməyini yüksək dəyərləndirdiyi üçün möhtərəm cənab Prezidentimizə minnətdarlıqlarını bildirmiş və tədbir iştirakçılarına təbriklərini çatdırmışlar.



Təhsildə əldə etdikləri nailiyyətlərə görə rayonun bir qrup qabaqcıl müəlliminə rayon İcra Hakimiyyətinin Fəxri Fərmanı təqdim olunmuş və qiymətli hədiyyələr verilmişdir.

Bayram tədbiri konsert proqramı ilə davam etmişdir.

# Tovuzlu gənclərin bir qrupu təntənəli şəkildə hərbi xidmətə yola salınıb

**_"Azərbaycan Respublikası vətəndaşlarının 2018-ci il oktyabrın 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılması və müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 04 sentyabr 2018-ci il tarixli Sərəncamına uyğun olaraq 24 oktyabr 2018-ci il tarixdə Tovuz şəhərinin mərkəzindəki Heydər Əliyev meydanında Tovuzlu çağırışçıların təntənəli hərbi xidmətə yola salma mərasimi keçirilmişdir._**



Tədbirdə Tovuz Rayon İcra Hakimiyyətinin başçısı Məmməd Məmmədov, Prezident Administrasiyasının məsul işçisi Orxan Mürsəlov, hüquq-mühafizə orqanlarının rəhbərləri, müharibə veteranları, şəhid ailələrinin təmsilçiləri, rayon ictimaiyyətinin nümayəndələri və çağırışçılar iştirak etmişlər.

İlk öncə Tovuz şəhərinin mərkəzindəki Heydər Əliyev meydanından hərbi xidmətə yola düşən gənclər, ictimaiyyətin nümayəndələri Ulu Öndərin abidəsi önünə tər çiçək dəstələri qoyaraq, dahi rəhbərin xatirəsini ehtiramla yad ediblər.

Tədbirin açılış mərasimində hərbi orkestrin ifasında Azərbaycanın dövlət himni səsləndirilmişdir. Sonra rayon icra hakimiyyətinin başçısı cənab Məmməd Məmmədov çıxış edərək ölkəmizdə ordu quruculuğu sahəsində qazanılan uğurlardan söhbət açıb, hərbi xidmətə yola düşən gənclərə tövsiyələrini vermişdir. Diqqətə çatdırılıb ki, Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin ordu quruculuğu sahəsində həyata keçirdiyi tədbirlər ölkəmizin hərbi qüdrətini artırmışdır. İndi ordumuz dünyanın ən güclü 50 ordusu sırasındadır.

Cənab M. Məmmədov çağırışçı gənclərə müraciət edərək qeyd etmişdir ki, ordu sizin bir şəxsiyyət kimi formalaşmağınızda böyük rol oynayacaqdır. Hərbi qulluq hər kəs üçün bir kişilik məktəbidir. Biz inanırıq ki, sizlər Vətənin keşiyində ayıq-sayıq dayanacaqsınız! Hər biriniz komandanlığın tapşırığını səylə yerinə yetirməklə hərbi texnikanı dərindən öyrənəcəksiniz. Milli varlığımızın qarantı olan orduda xidmət çox böyük şərəfdir. Ona görə də bu müqəddəs və məsuliyyətli işinizdə sizlərə uğurlar arzulayıram.

Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Tovuz rayon şöbəsinin rəisi vəzifəsinin icraçısı mayor Ceyhun Əliyev çıxış edərək ölkəmizdə ordu quruculuğu sahəsində aparılan işlərdən, Azərbaycan ordusunun hərbi qüdrətindən və rəşadətindən danışmış, çağırışçı gənclərə vətənə sədaqətlə xidmət etməyi, komandirlərinin bütün əmrlərini yerinə yetirməyi, mərd və mübariz, intizamlı əsgər olmağı tövsiyyə etmiş, xoş arzularını bildirmişdir.

Çıxış edən Qarabağ müharibəsi əlilləri və şəhid ailələri ictimai birliyinin Tovuz rayon şöbəsinin sədri Əli Əliyev, şəhid atası Bayram Hümbətov, valideyin Lətif Hüseynov, çağırışçı Hilal Xəlilov hərbi xidmətin hər bir gənc üçün müqəddəs borc olduğunu vurğulayaraq, gənclərə Vətənin keşiyində ayıq-sayıq dayanmağı, sağ gedib salamat qayıtmağı arzulamışlar.

Tədbirdə ərazidəki "N" saylı hərbi hissənin kəşfiyyat bölüyü nümunəvi hərəkətlər nümayiş etdirmiş, Tovuz rayon mədəniyyət mərkəzinin bədii öz fəaliyyət kollektivinin musiqi nömrələri dinlənilmişdir.

Tədbirin sonunda hərbi orkestirin müşayəti ilə çağırışçılar Azərbaycan bayrağının və müqəddəs Qurani-Kərimin altından keçərək hərbi hissələrə yola düşüblər.

Sayalı Yurdlar

# Bayramlı Mamırtısı və "Kənd yeri"

**_Tovuzun ən böyük dağ silsiləsi olan Mamırtı, bir sıra tədqiqatlara görə, su ayrıcı anlamını verən "eymur"la bağlıdır. Bayramlı kəndinin ziyalılarından Xanoğlan müəllim hələ ötən əsrin 70-ci illərində deyirdi ki, keçmişlərdə Mamırtı dağının adı Mahmırtlı, Mahmurlu kimi çağırılıb. Həmin söhbətin davamı kimi onu əlavə edə bilərik ki, heç də təsadüfi deyil ki, Bayramlı kəndindəki köklü nəsillərdən biri də eymurla bağlılığı ortada olan emirli (başqa sözlə, tarixi eymür, eymir toponimlərinin bu günümüzə gəlib çıxan forması) adlanır. Yeri düşmüşkən Bayramlının 19 əsas nəsillərindən yadımda qalanları sadalayıram: emirli, dəlləkli, yağnalı, təkməzili, söyməllər, babaşdı, çağırqanlar, seyidlər, qarağaşdı, möyləqulular, canqullar, yağıflılar, qaracalar, göyəndikli..._**



Bayramlı kəndinin ərazisində bizim eradan əvvəl III-II minilliyə aid nekropol vardır. Həmin nekropolun həndəvərindəki Göytəpə deyilən hissədə indiki Bayramlının qəbiristanlığı yerləşir. Müasir qəbirlərlə yanaşı orada öğuz sübutu kimi "Kənd yeri"nin ətrafındakı 3 qədim qəbiristanlıq ortadadır. Özü də həmin qəbiristanlıqlarda həm alban mədəniyyətinə xas olan məzarlar, həm üç tərəfi daşla üzlənmiş, həm dörd tərəfi daş lövhələrlə bağlı daş qutu qəbirləri, daş qutu qəbirləri, üzü qibləyə olan məzarlarla bərabər yönü müxtəlif istiqamətlərdə olan qəbirlər də bu günə gəlib çatmışdır. Nekropolun ətrafında təsərrüfat təyinatlı qazıntı işləri aparanda sirli yeraltı tunellərə rast gəlinir. Kənd yerində mədəni təbəqənin qalınlığı bəzən 3 metrəyə çatır. Bu arxaik və qədim kənd öz maddi-mədəniyyət nümunələri ilə onu söyləməyə əsas verir ki, müxtəlif mədəniyyətlərə ev sahibliyi edib və dünya binnət olandan burada insan məskən salıbdı. O insanları yedirdib bəsləyən isə uludan-ulu Mamırtı olubdu.

Mamırtının bizim Tovuzun Bayramlısının öhdəsində olan hissəsi çox koloritli və bərəkətli bir torpaqdır. Qıraqdan baxanda o qədər də əzəmətli görünməyən Mamırtı əslində ötən zamanlarda gur insan məskəni olmuşdur. Bunu onu yamaclarındakı kələfa yerləri, şəhərgah və digər izlər açıq- aşkar göstərir. Dağın Bayramlı icmasının istifadəsində olan hissəsində "Kənd yeri" deyilən bir yer var. Orada uzun əsrlər boyu insan yaşamışdır. Bunun qəbirləri, eyni zamanda kurqan tipli toplu məzarlıqlar və digər epiqrafik abidələr mövcuddur.

Doğrudan da burada yaşayış məntəqəsi, böyük kənd olması üçün bütün atributlar və hər cür şərait var: strateji yüksəklik, kəndin axar-baxarlığı, ətrafın göz işlədikcə uzanan ənginliyi, şəfalı bulaqlar, meşə və dəniz kimi dalğalanan məxmər çəmənlik. Dağdakı bulaqların çox az hissəsini burada verirəm ki, adları itə-bata düşməsin: Dül-dül bulağı, Cüyür bulağı, Noylu bulaq, Kərəm bulağı, Ağa bulağı, Gillik bulağı, Qara bulaq, Bəkir bulağı, Qızlar bulağı, Top bulaq, Zoğallı bulağı, Söyüdlü bulağı, Şərvəti bulağı, Kor bulaq, Baş bulaq, Ağabəy bulağı, Daşdı bulaq, Küllü bulaq, Çinarlı bulağı, İyli bulaq... saymaqla başa gələn deyil. Təkcə bir faktı qabardım ki, Bayramlı bələdiyyəsi kəndə baxar səmitdəki 18 bulağın suyunu cəmləyib kəndə gətirərək əhalinin içməli su problemini qismən həll eləyib... Ətrafdakı yer adları da özündə tarixin bir kəsimini yaşadır.: Böyük dərə, Dül-dül dərəsi, Kor Vəli günlüyü, Qaranlıq dərə, Ağdərə, Musa bəy günlüyü, Təkməzli çökəyi, Topqarağaclıq, Güvəndik günlüyü...

Qüdrətli bir ana kimi elləri-elatları öz döşünə çəkib bəsləyən Mamırtının başında da vaxtilə gur yaşayış olub. Orada kəndin yaşayış məntəqəsi kimi mövcud olmasının bir nişanını da deyim ki, onun sitayiş yeri, Ocağı, ilk inanclara şahidlik edən bir məkanı olmalıydı. "Kənd yeri" ilkin baxışda relyefə uyğun 3-4 yarusda yerləşir. Özü də onun Əsrik dərəsi istiqamətinə açılımı həm Qızıl dağına, həm Kəmər qaya, Şəhmir və Qozdu tərəfədir. Onun Kürbaxar tərəfində, başlanğıcını Mamırtıdan götürən iki dərənin qovuşuğunda bir Ocaq dağdağan olmuşdu. O, Mamırtının həmin qismində yaşamış o elatın, o camaatın tapınaq və sitayiş obyekti olub. Orada həm də qurbangah vardı. Ötən əsrin 80-ci illərinə qədər həmin dağdağan dururdu və insanlar ona böyük sayğı ilə yanaşırdılar. Bu, onu göstərir ki, xalqımızın tərkibindəki oğuz nişanlı bayramlı tayfasının da tarixi dinlərdən öncədir və ağaca, dağa tapınmaq insanların ilkin inancları ilə bağlıdır. Yeri düşmüşkən Bayramlı kəndinin qədimliyinin bir nişanı da odur ki, bölgəmizdə indiki bayramlılarla qohumluq tellərini bu gün də üzülməyə qoymayan tarixi Qıraq Bayramlı, Morul və Zəyəmdə çoxlu nəsillər yaşayırlar...

Qıraq Bayramlıda canqulların məskunlaşmasının özü ayrıca bir tarixdir. Mamırtı Bayramlısında Alı Ağa deyilən kotallı bir kişi vardı. Onun varı-halı başından aşmışdı. Allah şeytana lənət eləsin, necə olursa Alı Ağa var üstündə bir kasıbın xətrinə dəyir. Kənd icması sözü bir yerə qoyur: daha nə onun malına gedən olur, nə də əkin-ükününə çıxan. Əl-ayaq adamı da tapılmır onun işini aşırmağa. Daha Alı Ağa bilir başına nə gələcəyini. Qardaşlarını başına yığıb məsləhətləşir ki, daha burda qala bilməzlər, onlardan qisas alacaqlar. Adamlar duyuq düşməsin deyə elə qavqarılırlar ki, gecənin birində kənddən unanmaz yana tərpənirlər. Atı sürhasür gəlib Kür yaxasındakı Qara talaya (indiki Qıraq Bayramlının həndəvərləri) yetişib, köçü orda dayandırıb binə olurlar. O qalmaq bu qalmaq Alı Ağanın mənsub olduğu canqullardan bir qismi də Kür yaxasında məskunlaşır... Alı Ağanın damının iri ardıc kərəni son dövrlərə qədər Mamırtı Bayramlısında hələ dururdu... Tarixi türk torpaqlarında isə Türküstandan başlamış Ön Asiyaya qədər bayramlı tayfalarının izlərinə rast gəlmək mümkündür...

Kommunist rejiminin başını xarab eyləyib azdırdığı bir cavan "Kənd yeri"ndəki həmin tapınaqda olan Ocaq dağdağanı balta götürüb kəsmişdi. Daha doğrusu, onu baltalayıb kəsəndə bir ağsaqqal oraya gəlib çıxıb onu üzdəniraq əməlini başa çatdırmağa goymamışdı. Həmin oğlanın sonra başına nələr gəldi- bu gün də kənddə onu başqalarına görk olması üçün danışırlar. Baltalanaraq amanabənd hala gətirilmiş dağdağan isə bir neçə ildən sonra yıxıldı. Günü bu gün də həmin dağdağanın kötüyü həndəvərində dairəvi daş yığımları, uzun illərdən bəri insanların güzar saldığı o məkan qorunub saxlanılır və ora ziyarətgaha çevrilmişdir.

"Kənd yeri"nin epiqrafik abidələri və daşları görünən 4-5 unudulmuş qəbiristanlığından biri alban mədəniyyətinə aiddir. Ağsaqqallar danışırlar ki, ötən əsrin ortalarınadək həmin qəbiristanlıqda üstü yazılı iri bir daş vardı. Bir gün dağda mal otaranlar görürlər ki, "Kənd yeri"nin həndəvərində bir maşın dayandı. 4-5 adam gəlib o daşı götürüb dərədən aşağı hələyirlər. Yerlilər yaxınlaşana kimi o çağırılmamış qonaqlar "VILLIS"ə doluşub aradan çıxırlar. Bayramlılar gəlib görürlər nə: daş qayalara dəyərək pul-pul olub dərənin dibinə tökülüb- daha ələ gələsi deyil. Adamlar söyləyirlər ki, bu vandalizm əməlini törədənlər ermənilər olub. Həmin kitabədə tariximizin kim bilir hansı açılmamış qatı yatırmış?!

Babalarımız demiş, dünya gör neçə dəfə dolub boşalıb, onun yadigarları isə bu günümüzə gəlib çıxıbdır. Bayramlının Göytəpəsindəki nekropol və Mamırtının başındakı bu qədim "Kənd yeri" dediklərimizin böyük tarixi gerçəklikləri və geniş tədqiqata ehtiyacı olan arxefaktlarıdır. O zəngin tariximizi araşdıranlara salamlar olsun!

***Bəhruzər Rüstəmov.***

# Milli-mənəvi dəyərlərin təbliğinə xidmət edən yeni ünvan



Zəngin tarixi ənənələri olan Tovuz kimi koloritli bir bölgədə yeni muzey binasının tikilməsinə böyük ehtiyac vardı. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin, Azərbaycan Respublikasının Birinci-vitse prezidenti Mehriban xanım Əliyevanın xalqımızın milli-mənəvi dəyərlərinin təbliği və gənc nəslin həmin dəyərlər ruhunda yetişdirilməsi istiqamətində müəyyənləşdirdiyi hədəflərə uyğun olaraq rayonda da konkret tədbirlər həyata keçirilir.

Hazırda Tovuz şəhərində müasir tələblərə cavab verən tarix-diyarşünaslıq muzeyinin tikintisi başa çatmaq üzrədir. Milli memarlıq üslubunda inşa edilmiş həmin sosial obyektin ümumi sahəsi 820 $m^2$ olmaqla ikimərtəbəlidir. Müasir tikinti materiallarından istifadə edilməklə yaradılan həmin sosial obyekt tam istifadəyə verildikdən sonra burada bölgənin zəngin tarixini və şərəfli keçmişini özündə əks etdirən daimi ekspozisiyalar fəaliyyət göstərəcəkdir.

Rayon İcra Hakimiyyətinin başçısı cənab Məmməd Məmmədov tikintidə görülən işlərlə tanış olmuş, son tamamlama işlərinin keyfiyyətlə başa çatdırılması üçün lazımi tədbirlərin görülməsini təmin etmişdir.

# Vətəndaşların Nəzərinə!

Prezident İlham Əliyevin tapşırığı əsasında "ASAN xidmət" mərkəzlərinin olmadığı regionlarda vətəndaşların dövlət xidmətləri ilə təmin edilməsi üçün müasir texniki avadanlıqla təchiz olunmuş Səyyar "ASAN qatar" oktyabr ayının 19-dan etibarən Tovuz rayonunun Qovlar şəhəri, Vağzal küçəsi (Qovlar Dəmiryol Stansiyası) ünvanında fəaliyyət göstərəcəkdir.

***ASAN xidmət***

# Vətəndaşların nəzərinə!

Azərbaycan Respublikasının Daxili İşlər Naziri general-polkovnik cənab Ramil Usubov tərəfindən cari ilin oktyabr ayının 27-də Gəncə şəhərində daxili işlər orqanları əməkdaşlarının fəaliyyətinə və Daxili İşlər Nazirliyinin səlahiyyətlərinə aid məsələlərlə bağlı vətəndaşların qəbulu keçiriləcəkdir.

Bununla əlaqədər olaraq, daxili işlər orqanları əməkdaşlarının fəaliyyətinə və Daxili İşlər Nazirliyinin səlahiyyətlərinə aid məsələlərlə bağlı müraciət etmək istəyən vətəndaşlar qəbula yazılmaq üçün Tovuz rayon polis şöbəsinin növbətçi hissəsinə müraciət edə bilər.

***Tovuz Rayon Polis Şöbəsi***

# Allah rəhmət eləsin!

Tovuz Rayon İcra Hakimiyyətinin başçısı Məmməd Məmmədov və icra Aparatının kollektivi rayon bələdiyyəsi şurasının və Qovlar şəhər bələdiyyəsinin sədri

**Binnət Hüseynovun**

vəfatından kədərləndiklərini bildirir, ailəsinə və qohumlarına dərin hüznlə başsağlığı verirlər.

---

Tovuz Rayon İcra Hakimiyyətinin başçısı Məmməd Məmmədov və icra Aparatının kollektivi RİH başçısının Çatax İƏD üzrə nümayəndəsi Eldar Abbasova, qardaşı

**Müzəffər Abbasovun**

vəfatından kədərləndiklərini bildirir, ailəsinə və qohumlarına dərin hüznlə başsağlığı verirlər.

---

Tovuz Rayon İcra Hakimiyyətinin başçısının Qovlar şəhər İƏD üzrə nümayəndəliyinin kollektivi rayon bələdiyyəsi şurasının və Qovlar şəhər bələdiyyəsinin sədri

**Binnət Hüseynovun**

vəfatından kədərləndiklərini bildirir, ailəsinə və qohumlarına dərin hüznlə başsağlığı verirlər.

---

"Tovuz" qəzetinin kollektivi rayon bələdiyyəsi şurasının və Qovlar bələdiyyəsinin sədri

**Binnət Hüseynovun**

vəfatından kədərləndiklərini bildirir, ailəsinə və qohumlarına dərin hüznlə başsağlığı verirlər.

---

"Tovuz" qəzetinin kollektivi RİH başçısının Çatax İƏD üzrə nümayəndəsi Eldar Abbasova, qardaşı

**Müzəffər Abbasovun**

vəfatından kədərləndiklərini bildirir, ailəsinə və qohumlarına dərin hüznlə başsağlığı verirlər.

# Hörmətli oxucular!

Tovuz Rayon İcra Hakimiyyətinin orqanı olan

## "Tovuz"

qəzetinə 2018-cı ilin ikinci yarısı üçün abunə yazılışı davam edir. Qəzetin yarım illik abunə qiyməti 20 manatdır. Qəzetə "Kapitalbank"ın Tovuz filialında abunə yazılmaq olar.

*Qəzetdəki fotoların müəllifi İlham Qiyasoğludur.*

**BAŞ REDAKTOR**
**Çingiz Qəribli**

**Ünvanımız:**
*Tovuz şəhəri, Şəhriyar küçəsi, 3,*
*Telefon: 315-35-23*
*tovuz.1929@mail.ru*

*Redaksiyaya göndərilən əlyazmalar geri qaytarılmır. Dərc olunan məktublardakı faktlara və elanların məzmununa görə redaksiya məsuliyyət daşımır.*

*Qəzet redaksiyanın kompyüter mərkəzində yığılmış, səhifələnmiş və "Mətbuat firması" mətbəəsində çap olunmuşdur.*
*Sifariş.:987 Tiraj: 1500.*